# ÜÇ ƏSAS

Müəllif: Muhəmməd ibn AbdulVahhab ət-Təmimi (rahiməhullah)

Tərcümə edən: Elxan abu Omar əl-Qazveyni

بسم الله لرحمن الرحيم

Əziz və möhtərəm müsəlman! Bu risalə əsrimizə yaxın yaşamış və İslam dinini dirçəltmiş böyük alim, Muhəmməd ibn AbdulVahhab ət-Təmiminin risalələrindən biridir. Müəllif bu risalədə hər bir müsəlmana qəbirdə veriləcək olan üç sual barəsində bəhs edir. Sən bu risaləni oxuduqda, müəllifin sözlərinin Quran və Sunnəyə necə uyğun olduğunu görəcəksən. Şəkk yoxdur ki, şeyxin (Allah ona rəhmət etsin) bu və bu kimi başqa risalələri də bu minvalla yazılmışdır və şeyxin dəvət yolu Peyğəmbərimiz Muhəmmədin (salləllahu aleyhi və səlləm) yoludur - insanlara Rəblərini tanıtmaq və bütün ibadətlərin yalnız Onun üçün olmasına dəvət etmək. Əziz oxucu, risaləyə başlamazdan əvvəl sənə müəllif haqda qısa məlumat vermək istəyirəm.

Adı: ***Muhəmməd ibn AbdulVahhab ibn Süleyman ibn Əli ibn Muhəmməd ibn Əhməd ibn Raşid ət-Təmimidir.*** Hicrətin 1115-ci ilində (miladi tarixlə 1703-cü ildə) Uyeynə şəhərində anadan olmuşdur. Şeyx öz atası AbdulVahhabın himayəsində böyümüş və uşaq ikən, hələ 10 yaşını bitirməmiş Qurani Kərimi tam əzbərləmişdir. Atası qeyd edir ki, o, 12 yaşına yetişdikdə artıq həddi-buluğa çatır, bunu görən atası onu dərhal evləndirir. Həmçinin Şeyx, bu yaşlarında olarkən namazda imam durardı və o, çox güclü zəkaya malik idi. Atasından Hənbəli fiqhini, təfsir və hədis elmlərini öyrənmişdi. Sonra Şeyx elm öyrənmək üçün Məkkəyə və Mədinəyə, daha sonra Kufəyə, Bəsrəyə və Şama səfər edir. Öz zamanında olan bir çox böyük alimlərdən elm alır. Bundan sonra Şeyx, bu mübarək elmi ilə dəvətinə başlayır. Şeyx hicrətin 1206-ci ilində (miladi tarixlə 1793-ildə) 90 yaşında vəfat edir. O, özündən sonra ümmətə faydalı olan bir çox elmi risalələr və kitablar qoyub getmişdir. Uca Allahdan istəyirəm ki, Şeyxin qəbrini nurla doldursun və bizi də onun kimi, bu dinə dəvət edən, elmli və saleh əməl sahibi olan qullarından etsin.

**Yazdı: Elxan abu Omar əl-Qazveyni.**

## ÜÇ ƏSAS

Bil ki, - Allah sənə rəhm etsin - bizim üzərimizə dörd məsələni bilmək vacibdir:

1-ci: Elm (öyrənmək)! Bu (elm) də - Allahı tanımaq, Onun Peyğəmbərini tanımaq və İslam dinini dəlilləri ilə bilməkdir.

2-ci: Bu (elmə) əməl etmək.

3-cü: Bu (elmə) dəvət etmək.

4-cü: Onda (bu yolda) olan əziyyətlərə səbr etmək.

(Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Mərhəmətli, Rəhimli Allahın adı ilə. And olsun əsrə** (əsr vaxtına) **(1). Həqiqətən də insan xəsarət içindədir (2). Yalnız iman gətirib saleh əməl edənlər, bir-birinə haqqı və səbri tövsiyə edənlər istisnadır (3) (Əsr surəsi, 1-3 ).***

İmam Şafii (Allah ona rəhmət etsin) buyurmuşdur: ***"Əgər Allah bu surədən başqa məxluqatına höcət olaraq heç nə nazil etməsəydi,** (yenə də bu surə) **onlara kifayət edərdi."***

İmam Buxari (Allah ona rəhmət etsin) demişdir: ***"Elm fəsli - sözdən və əməldən öncədir.** (Buna) **dəlil Uca Allahın** (bu) **kəlamıdır:***

***Bil ki, Allahdan başqa haqqı ilə ibadətə layiq olan ilah yoxdur. Sonra günahlarının bağışlanmasını dilə... (Muhəmməd, 19).***

*(Uca Allah) **elmi sözdən və əməldən qabaq zikr etdi."***

Bil ki, - Allah sənə rəhm etsin - hər bir müsəlman kişi və qadının üzərinə bu üç məsələni bilmək və onlara əməl etmək vacibdir:

***1-ci: Həqiqətən də Allah bizi xəlq etdi, bizə ruzi verdi və bizi öz başına buraxmadı, əksinə, bizə Rəsul göndərdi. Kim o Rəsula itaət edərsə Cənnətə girər, kim də ona asi olarsa Cəhənnəmə girər.***

(Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Həqiqətən Biz, Firona Rəsul göndərdiyimiz kimi sizə də üzərinizdə şahidlik edəcək Rəsul göndərdik. Firon Rəsula asi oldu, Biz də onu şiddətli əzabla yaxaladıq (Muzzəmmil, 15-16).***

***2-ci: (Uca) Allah Onunla yanaşı kiməsə ibadət olunmasına – istər (Ona) yaxın olan bir Mələk olsun, istərsə də göndərilmiş bir Rəsul – razı olmaz.*** (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Həqiqətən də məscidlər Allaha məxsusdur. Onunla yanaşı başqa birisini çağırmayın (Cinn, 18).***

***3-cü. Əgər kim Rəsula itaət edib, Allahı** (ibadətdə) **təkləşdirərsə, o kəsə icazəli deyil ki, Allah və Rəsulunun qoyduğu hədləri aşanları – hətta ən yaxınları olsa belə - özünə dost tutsun.*** (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Sən Allaha və Axirət gününə iman gətirən elə bir qövm görməzsən ki, Allah və Rəsulunun qoyduğu hədləri aşan kəsləri - istər ataları, oğulları, qardaşları və ya əqrabaları olsalar belə - özlərinə dost tutsunlar.*** *(Allah)* ***onların qəlblərinə iman yazmış və onları Özündən olan bir ruhla gücləndirmişdir.*** *(Allah)* ***onları altından çaylar axan, içində əbədi qalacaqları Cənnətlərə daxil edəcəkdir. Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın dəstəsidir. Məgər uğur qazananlar da məhz Allahın dəstəsi deyilmi?! ( Mucadələ, 22).***

Bil ki, - Allah səni Öz itaətinə yönəltsin - İbrahimin (Allahın ona salavatı və salamı olsun) dini olan həniflik (batildən haqqa yönəlmək) - dini yalnız Ona məxsus edərək tək Allaha ibadət etməyindir. Allah bütün insanlara bunu əmr etmiş və onları (məhz) bunun üçün xəlq etmişdir. Necə ki, Uca Allah buyurur:

***Mən cinləri və insanları yalnız Mənə ibadət etmələri üçün xəlq etdim (Zariyat, 56).***

"İbadət etmələri üçün" (sözünün) mənası - Allahı təkləşdirmək deməkdir.

Allahın ən əzəmətli əmri – tövhiddir. O da - Allahı ibadətdə təkləşdirməkdir. (Allahın) ən əzəmətli qadağası isə - şirkdir. O da - Allahla yanaşı başqa birisini çağırmaqdır. (Buna) da dəlil Uca Allahın (bu) kəlamıdır:

***Allaha ibadət edin və Ona heç nəyi şərik qoşmayın! (Nisa, 36).***

Əgər bir kəs sənə desə ki, insana bilməsi vacib olan o üç əsas nədir? De - qulun öz Rəbbini, dinini və Peyğəmbəri Muhəmmədi (salləllahu aleyhi və səlləm) tanımasıdır.

## BİRİNCİ ƏSAS – ALLAHI TANIMAQ

Əgər sənə deyilsə ki, Rəbbin kimdir? De - Rəbbim Allahdır. O, məni və bütün aləmləri Öz nemətləri ilə xəlq etdi. O, mənim məbudumdur[1] (ibadət etdiyimdir), mənim Ondan başqa məbudum yoxdur. (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusdur (Fatihə, 2).***

Allahdan başqa olan hər bir şey, bir aləmdir (yaradılmışdır), mən də bu aləmlərdən biriyəm. Əgər sənə deyilsə ki, Rəbbini nə ilə tanıdın? De - Onun ayələri və məxluqatları ilə. Onun ayələrindən - gecə və gündüz, günəş və ay, məxluqatından isə - yeddi göylər, yeddi yer və onların içində və (onlar) arasında olanlardır. (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Gecə və gündüz, günəş və ay Onun ayələrindəndir. Siz nə günəşə nə də aya səcdə etməyin. Əgər Ona*** *(Allaha)* ***ibadət edənlərsinizsə, onları xəlq edən Allaha səcdə edin (Fussilət, 38).***

Həmçinin Uca (Allah) buyurur:

***Həqiqətən sizin Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra Ərşin üzərinə yüksələn Allahdır. Gecə gündüzü örtərək, sürətlə*** *(biri o birisini)* ***tələb edir. Günəş, ay, ulduzlar*** *(hamısı)* ***Onun əmrilə boyun əyərlər. Məgər əmr və xəlq etmək Ona aid deyilmi?! Aləmlərin Rəbbi olan Allah necə də mübarəkdir (Əraf, 54).***

Rəbb olan, məhz odur məbud. (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Ey insanlar, sizi və sizdən öncəkiləri xəlq edən Rəbbinizə ibadət edin ki, bəlkə Ondan qorxasınız. O, yer üzünü sizin üçün döşək, səmanı isə tavan etdi. Səmadan su endirib, onunla sizin üçün*** *(yerdən)* ***ruzi olaraq meyvələr çıxardı. Siz də*** *(bütün bunları)* ***bildiyiniz halda Allaha şəriklər götürməyin (Bəqara, 21-22).***

İbn Kəsir (Allah ona rəhmət etsin) buyurmuşdur: ***"Bu şeylərin Xaliqi - ibadətə haqqı çatan da*** *(yalnız)* ***Odur!"***

Allahın bizə əmr etdiyi ibadətin növlərinə gəldikdə, məsələn: İslam, iman, ehsan, həmçinin, dua etmək, (Ondan) qorxmaq, (Allaha) ümid bəsləmək, (Ona) təvəkkül etmək, rəğbət bəsləmək, əzabından qorxmaq, xüşu, qorxaraq çəkinmək, (Allaha) dönmək, Ondan kömək istəmək, Ona sığınmaq, çətin anında Ondan kömək diləmək, qurban kəsmək, nəzir demək və s. bu kimi Uca Allahın bizə əmr etmiş olduğu ibadət növlərinin hamısı Allaha məxsusdur. (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Həqiqətən də məscidlər Allaha məxsusdur. Onunla yanaşı başqa birisini çağırmayın (Cinn, 18).***

---

*[1]Məbud – İlah, ibadət olunan.*

Kim onlardan (ibadət növlərindən) birini belə Allahdan qeyrisinə yönəldərsə, o kəs müşrik[2] və kafirdir[3]. (Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Kim heç bir dəlili olmadığı halda Allahla yanaşı başqa birisinə dua edərsə, onun hesabı Rəbbi yanındadır. Həqiqətən də kafirlər nicat tapmazlar (Muminun, 117).***

Həmçinin hədisdə (rəvayət olunur ki,):

***"Dua ibadətin beynidir."***[4]

(Buna) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim! Mənə ibadətdən təkəbbürlük edənlər Cəhənnəmə alçalaraq girəcəklər (Ğafir, 60).***

Qorxuya dəlil Uca Allahın (bu) kəlamıdır:

***Onlardan qorxmayın, əgər möminsinizsə Məndən qorxun. (ali-İmran, 175).***

Ümid bəsləməyə dəlil Uca Allahın (bu) kəlamıdır:

***Kim öz Rəbbi ilə görüşəcəyinə ümüd bəsləyirsə, saleh əməl etsin və ibadətdə heç nəyi Rəbbinə şərik qoşmasın (Kəhf, 110).***

Təvəkkülə dəlil Uca Allahın (bu) kəlamıdır:

***Əgər möminsinizsə, Allaha təvəkkül edin (Maidə, 23).***

Həmçinin Uca Allah buyurur:

***Kim Allaha təvəkkül edərsə, O, ona bəs edər (Talaq, 3).***

Rəğbət, rəhbət (əzabından qorxmaq) və xüşuya dəlil Uca Allahın (bu) kəlamıdır:

***Həqiqətən onlar xeyir işlərdə tələsər, rəğbət və qorxu ilə Bizi çağırar, və Bizə xüşulu halda ibadət edərlər (Ənbiya, 90).***

Qorxuya (xaşyə) dəlil Uca Allahın (bu) kəlamıdır:

***Onlardan qorxmayın, Məndən qorxun (Bəqara, 150).***

Allaha dönməyə dəlil Uca Allahın (bu) kəlamıdır:

***Rəbbinizə dönün və Ona təslim olun (Zumər, 54).***

---

[2]*Müşrik – Allaha şərik qoşan.*

[3]*Kafir – İslam dinində olmayan, Allah və Rəsulunu (salləllahu aleyhi və səlləm) yalanlayan.*

[4]*Sunən ət-Tirmizi, 3371. Hədisin hökmü zəifdir. Tirmizi hədisi qərib yolla rəvayət etmişdir.*

Allahdan kömək istəməyə dəlil Uca Allahın (bu) kəlamıdır::

***Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik (Fatihə, 5).***

Həmçinin hədisdə (buna dəlil):

***Əgər kömək istəsən, Allahdan istə.***[5]

Allaha sığınmağa dəlil Uca Allahın (bu) kəlamıdır:

***De, sığınıram insanların Rəbbinə (Nas, 1).***

Allahdan çətin anda kömək istəməyə dəlil Uca Allahın (bu) kəlamıdır:

***Siz Rəbbinizdən*** *(çətin anda)* ***kömək istədikdə, O, sizə kömək göndərdi (Ənfal, 9).***

(Qurban) kəsməyə dəlil Uca Allahın (bu) kəlamıdır:

***De - həqiqətən mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allah üçündür. Onun şəriki yoxdur. Mən bunula əmr olundum və mən təslim olanların*** *(müsəlmanların)* ***ən birincisiyəm (Ənam, 162-163).***

Sunnədən olan (dəlil) isə:

***Allahdan qeyrisi üçün qurban kəsənə Allah lənət etsin.***[6]

Nəzirə dəlil isə Uca Allahın (bu) kəlamıdır:

***Onlar nəzrlərinə vəfalı olub, şəri hər yeri bürüyəcək gündən qorxarlar (İnsan, 7).***

## İKİNCİ ƏSAS – İSLAM DİNİNİ DƏLİLLƏRLƏ BİLMƏK

***O*** *(İslam)* ***- Allaha tövhidlə təslim olmaq, itaətlə boyun əymək, şirkdən və əhlindən çəkinməkdir.*** Onun (İslamın) üç mərtəbəsi vardır: İslam, İman və Ehsan. Hər bir mərtəbənin də öz rükunları vardır.

### *Birinci mərtəbə: İslam*

İslamın ərkanları beşdir: 1.Şəhadət (kəlməsi) ***Lə iləhə illəllah və ənnə Muhəmmədən Rasulullah*** (Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur və Muhəmməd onun elçisidir), 2.Namaz qılmaq, 3.Zəkat vermək, 4.Ramazanda oruc tutmaq, 5. Allahın evi – Haramı (Kəbəni) (imkan olduqda) ziyarət etmək.

Şəhadət (kəlməsinə) dəlil Uca Allahın (bu) kəlamıdır:

---

[5] *Sunən ət-Tirmizi, 2516. Səhihdir.*

[6] *Səhihi-Muslim, 1978.*

***Allah Ondan başqa heç bir ilah olmadığına şahidlik etdi, Mələklər və ədalət üzərində olan elm sahibləri də şahidlik etdilər. O Qüdrətli və Hikmətlidən başqa heç bir ilah yoxdur. (ali-İmran, 18).***

Mənası da budur ki, Allahdan başqa haqqı ilə ibadət olunan heç bir məbud yoxdur və O, təkdir . ***"Lə iləhə"*** kəlməsi - Allahdan başqa bütün ibadət olunanları inkar etmək, ***"illəllah"*** kəlməsi isə - ibadətin tək olan Allaha (aid olmasının) isbat olunmasıdır. Onun mülkündə heç bir şəriki olmadığı kimi, ibadətdə də heç bir şəriki yoxdur. O kəlmənin təfsirinə gəlincə isə, Uca Allah (Öz Kitabında) onu açıqlayaraq buyurur:

***O vaxt ki, İbrahim öz atasına və qövmünə demişdi: "Mən sizin ibadət etdiklərinizdən uzağam. Yalnız məni xəlq edəndən başqa, çünki, həqiqətən də O, məni doğru yola müyəssər edəcəkdir." O, özündən sonra*** *(bu sözlərini)* ***daimi qalan bir kəlmə etdi, ola bilsin onlar*** *(haqqa)* ***dönsünlər (Zuxruf, 26-28).***

Həmçinin Uca Allah buyurur:

***De, "ey Kitab əhli! Bizim və sizin aranızda eyni olan bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək və Ona heç nəyi şərik qoşmayaq. Allahı qoyub bir-birimizi*** *(özümüzə)* ***Rəblər qəbul etməyək." Əgər üz çevirsələr, deyin – şahid olun ki, həqiqətən də biz müsəlmanlarıq (ali-İmran, 64).***

***"Həqiqətən də Muhəmməd Allahın Rəsuludur"*** şəhadətinə isə dəlil, Uca Allahın (bu) kəlamıdır:

***Artıq sizə özünüzdən bir elçi gəldi, sizə baş verən əziyyətlər*** *(zəlalətləriniz)* ***onun üçün ağırdır, sizin*** *(xeyirinizdə)* ***harisdir və möminlərə qarşı mehriban və rəhimlidir (Tövbə, 127).***

Amma ***"Həqiqətən də Muhəmməd Allahın Rəsuludur"*** şəhadətinin mənası isə: ***"Əmrlərində ona itaət etmək, verdiyi xəbərlərdə onu təsdiqləmək, qadağan edib pis gördüyü şeylərdən çəkinmək və Allaha yalnız onun gətirdiyi şəriətlə ibadət etməkdir."***

Namazın, zəkatın və tövhid kəlməsinin (*Lə İləhə İlləllah*) təfsirinə dəlil isə, Uca Allah buyurur:

***Halbuki onlara dini yalnız Ona xalis edərək, batildən haqqa dönərək Allaha ibadət etmələri əmr olunmuşdu. Düzgün olan din də elə budur (Beyyinə, 5).***

Oruca dəlil isə, Uca Allah buyurur:

***Ey iman gətirənlər, sizdən əvvəlkilərə vacib edildiyi kimi sizə də oruc tutmaq vacib edildi ki, bəlkə Allahdan qorxasınız (Bəqara, 183)***

Həccə dəlil isə, Uca Allah buyurur:

***Allah yolunda, insanlardan gücü çatana*** *(Onun)* ***evini Həcc etmək vacib oldu. Kim də küfr edərsə, bilsin ki, Allah bütün aləmlərdən varlıdır*** *(ehtiyacsızdır)* ***(ali-İmran, 97) .***

*İkinci mərtəbə: İman.*

O (iman) - yetmiş və (bir) neçə şöbədən ibarətdir. Ən uca zirvəsi - ***Lə İləhə İlləllah*** kəlməsidir, ən aşağı olanı isə - yoldan əziyyət verən bir şeyi kənaralaşdırmaqdır. Həya da imandan (bir) şöbədir. Rükunları altıdır: 1.Allaha iman gətirmən, 2.(Onun) Mələklərinə, 3.Kitablarına, 4.Rəsullarına, 5.Axirət gününə, 6.Qədərə - xeyirin və şərin (Allahdan olmasına iman gətirməndir). Bu altı rükuna dəlil isə, Uca Allah buyurur:

***Yaxşı əməl heç də üzünüzü məşriqə və məğribə çevirməniz deyildir. Həqiqətdə yaxşı əməl,*** *(insanın)* ***Allaha, Axirət gününə, mələklərə, Kitablara və Peyğəmbərlərə iman gətirməsidir (Bəqara, 177).***

Qədərə dəlil isə, Uca Allah buyurur:

***Həqiqətən də Biz hər bir şeyi*** *(müəyyən bir)* ***qədərdə xəlq etdik (Qamər, 49).***

*Üçüncü mərtəbə: Ehsan*

Yalnız bir rükundan ibarətdir, o da - sənin Allaha Onu görmüş kimi ibadət etməyindir, (və bilməyindir ki,) hətta sən Onu görməsən də, O, səni görür. Buna dəlil Uca Allahın (bu) kəlamıdır:

***Həqiqətən də Allah Ondan qorxan və ehsan edənlərlədir (Nəhl 128).***

Həmçinin Uca Allah buyurur:

***İzzətli və Rəhimli olana təvəkkül et. Hansı ki, səni qiyama qalxdığında görür.*** *(Həmçinin)* ***səcdə edənlərin arasında dolaşdığında da*** *(görür)*. ***Həqiqətən də O, hər şeyi Eşidən və Biləndir (Şuəra, 217-219).***

Həmçinin Uca Allah buyurur:

***Sən nə iş görsən, Qurandan nə oxusan və*** *(hamınız)* ***nə əməllər etsəniz belə, Biz etdiyiniz zaman sizin üzərinizdə şahidlərik (Yunus, 61).***

Sunnədən dəlil isə Cəbrailin (Allahın ona salamı olsun) məşhur hədisidir ki, Ömər ibn əl-Xattabdan rəvayət edərək buyurur:

***"Bir gün Peyğəmbərin (Allahın ona və ailəsinə salatı və salamı olsun) yanında oturmuşduq. Qəflətən yanımıza paltarı düm ağ, saçları tünd qara olan bir şəxs gəldi. Onun üzərində səfər əlaməti yox idi, bizlərdən də heç kəs onu tanımırdı. Dizlərini onun (Peyğəmbərin) dizlərinə söykədi, əllərini də öz dizlərinin üzərinə qoydu və dedi: "Mənə İslam barədə xəbər***

***ver!" Peyğəmbər (Allahın ona və ailəsinə salavatı və salamı olsun) dedi: "İslam dini - sənin Allahdan başqa ibadətə layiq olan heç bir məbud olmadığına və Muhəmmədin Allahın Rəsulu olduğuna şəhadət etmən, namaz qılman, zəkat vermən, Ramazan ayını oruc tutman və bacardığında Evi (Kəbəni) Həcc etməndir." Sual verən dedi: "Doğru dedin." Biz onun sual verib sonra isə (cavabı) təsdiq etməsinə təəccüb etdik. Sual verən dedi: "Mənə iman barədə xəbər ver."*** *Peyğəmbər (Allahın ona və ailəsinə salavatı və salamı olsun)* ***dedi: "İman – Allaha, Onun Mələklərinə, Kitablarına, Rəsullarına, Qiyamət gününə, (həmçinin) xeyirin və şərin qədərdən olmasına iman gətirməndir." Sual verən dedi: "Onda mənə ehsan barədə xəbər ver."*** *Peyğəmbər (Allahın ona və ailəsinə salavatı və salamı olsun)* ***dedi: "Ehsan Allaha Onu görmüş kimi ibadət etməyindir, sən Onu görməsən də O, səni görür."*** Sual verən dedi: ***"Mənə Qiyamət saatı barədə xəbər ver."*** *Peyğəmbər (Allahın ona və ailəsinə salatı və salamı olsun)* ***dedi: "Onun barəsində soruşulan soruşandan artıq heç nə bilmir."*** *Sual verən* ***dedi: "Onda onun əlamətləri barədə mənə xəbər ver."*** *Peyğəmbər (Allahın ona və ailəsinə salavatı və salamı olsun)* ***dedi: "Qul qadın öz ağasını doğacaq və sən ayağı yalın lüt kasıb çobanları hündür evlər tikməkdə yarışan görəcəksən." Sonra sual verən getdi. Bir müddət keçdi və*** *(Allah Rəsulu)* ***dedi: "Bilirsinizmi sual verən kim idi?" Dedilər: Allah və Rəsulu daha yaxşı bilir.*** *(Allah Rəsulu)* ***dedi: "O, Cəbrail idi, sizə öz dininizi öyrətmək üçün gəlmişdi."*** [7]

## ÜÇÜNCÜ ƏSAS – PEYĞƏMBƏRİNİZ MUHƏMMƏDİ *(SALLƏLLAHU ALEYHİ VƏ SƏLLƏM)* TANIMAQ

Adı - ***Muhəmməd ibn Abdullah ibn AbdulMuttalib ibn Həşimdir***. Həşim Qureyş qəbiləsindən, Qureyş Ərəblərdən, Ərəblər isə Xəlil[8] İbrahimin oğlu İsmailin nəslindəndir – Allahın ona və bizim Peyğəmbərə və ailəsinə salavatı və salamı olsun. O altmış üç il ömür yaşamışdır, ondan qırx ilini Peyğəmbərlikdən öncə, iyirmi üç ilini isə Peyğəmbər və Rəsul olaraq yaşamışdır. ***"Oxu..." (İqra, 1-5)*** surəsi ilə Peyğəmbər, ***"Muddəssir"*** surəsi ilə isə Rəsul elan olunmuşdur. (Doğulduğu yer) Məkkə şəhəridir, sonra isə Mədinəyə hicrət etmişdir. Uca Allah onu şirkdən çəkindirib, Tövhidə dəvət etmək üçün göndərmişdir. Buna dəlil olaraq buyurur:

***Ey örtüyünə bürünən*** *(Peyğəmbər!)*, ***Qalx*** *(və insanları Allahın əzabı ilə)* ***qorxut. Rəbbini Uca tut. Paltarını təmizlə. Pis şeyləri tərk et.*** *(Yaxşılıq etdikdə)* ***əvəzində çox istəmə*** *(nəsə təmənna etmə)*. ***Rəbbin üçün səbr et (Muddəssir, 1- 7).***

***"Qalx (və insanları Allahın əzabı ilə) qorxut***" ayəsinin mənası – "şirkdən qorxut və tövhidə dəvət et."

---

*[7] Əhməd (1, 15-20), Muslim, iman kitabı, İslam, iman və ehsanın bəyanı babı, 8.*

*[8] Xəlil – dost. Uca Allah buyurur: Allah İbrahimi dost (Xəlil) tutmuşdur (Nisa, 125).*

***“Rəbbini Uca tut”*** - yəni, Onu tövhidlə əzmətləşdir.

***“Paltarını təmizlə”*** - yəni, əməllərini şirkdən təmizlə.

***“Pis şeyləri tərk et”*** (ayəsində) “Pis şeylər” (Ərəbcə Rucz) - bütlər deməkdir. “Tərk et” isə, onları tərk etmək - onlardan və əhlindən (onlara ibadət edənlərdən) uzaq durmaqdır. Beləliklə, on il Allah Rəsulu yalnız buna dəvət (tövhidə) etdi, və on ildən sonra səmaya merac etdi (qaldırıldı) və orada ona beş vaxt namaz vacib edildi, (endikdən sonra) üç il Məkkədə namaz qıldı, sonra isə Mədinəyə hicrət etməyə əmr olundu.

***“Hicrət”***- şirk diyarından İslam diyarına köçmək - bu ümmətə fərz olundu və bu (hicrətin hökmü), Qiyamət saatına qədər qalmaqdadır. Buna dəlil isə, Allahın (bu) kəlamıdır:

***Mələklər özlərinə zülm edənlərin canlarını aldıqda, onlara deyəcəklər: “Siz nə halda idiniz?” Deyəcəklər: “Biz yer üzündə çox aciz idik.”*** *(Mələklər)* ***deyəcəklər “Məgər Allahı yeri*** *(yerin üzəri)* ***geniş deyildimi ki,*** *(o yaşadığınız küfr diyarı olan)* ***yerdən hicrət edəsiniz?!” Həqiqətən onların yeri Cəhənnəmdir, ora necə də pis dönüş yeridir. Yalnız kişilərdən, qadınlardan və uşaqlardan nə bir çarə, nə də bir yol tapmaqdan aciz olanları istisnadırlar. Ola bilsin ki, Allah onları əfv etsin*** *(bağışlasın)*. ***Allah əfv edən və Bağışlayandır (Nisa, 97-99).***

Uca Allah həmçinin buyurur:

***Ey Mənim iman gətirmiş qullarım! Həqiqətən də, Mənim yerim*** *(yerin üzəri)* ***genişdir. Yalnız Mənə ibadət edin (Ənkəbut, 56).***

(İmam) Bəğəvi (Allah ona rəhmət etsin) buyurur: ***“Bu ayənin enmə səbəbi Məkkədə qalıb hicrət etməyən*** *(buna qadir olmayan)* ***bəzi müsəlmanlar idi. Uca Allah onlara “iman əhli” deyərək səsləndi.”*** Sunnədən hicrətə dəlil isə, Allah Rəsulunun (salləllahu aleyhi və səlləm) bu sözüdür:

***“Tövbə bitməyənə qədər hicrət də bitməz. Tövbə də günəş məğribdən (batdığı yerdən) doğmayana qədər bitməz.”***[9]

(Allah Rəsulu (sallallahu aleyhi və səlləm)) Mədinəyə yerləşdikdən sonra, İslamın başqa ayinlərini yerinə yetirməklə də əmr olundu. Məsələn: zəkat, oruc, Həcc, azan, cihad, yaxşılığı əmr edib, pislikdən çəkindirmək və İslamın bu kimi başqa ayinləri. On il bunlara dəvət etdi və sonra vəfat etdi - Allahın ona salavatı və salamı olsun - ***dini isə hələ də durmaqdadır.***

Budur onun dini - elə bir xeyir olmadı ki, ona tərəf ümmət üçün yol göstərməsin və elə də şər olmadı ki, ondan ümməti çəkindirməsin. Ona tərəf yol göstərdiyi xeyir - tövhiddir və Allahın sevdiyi və razı qaldığı bütün əməllərdir. Ondan çəkindirdiyi şər isə - şirkdir və Allahın ikrah etdiyi və pis gördüyü bütün əməllərdir. Allah onu *(Muhəmmədi (salləllahu aleyhi və səlləm))* bütün insanlara göndərdi və ona itaəti iki mükəlləf olunmuş məxluqların üzərinə - Cinlərə və

[9] *Sunən əbu-Davud, 2479. Səhihdir.*

İnsanlara vacib etdi. Buna dəlil olaraq Uca Allah buyurur:

***De, ey insanlar! Mən sizin hamınıza göndərilən Allahın elçisiyəm (Əraf, 158).***

Allah onun gəlişi ilə dini kamil etdi. Buna dəlil olaraq Uca Allah buyurur:

***Bu gün sizin dininizi kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı seçdim (Maidə, 3).***

(Peyğəmbərmizin) ölümünə dəlil isə Uca Allah buyurur:

***Həqiqətən sən də öləcəksən, onlar da öləcəklər. Sonra siz Rəbbinizin yanında Qiyamət günü hesaba çəkiləcəksiniz (Zumər, 30-31.)***

İnsanlar öldükdən sonra (yenidən) diriləcəklər. Buna dəlil olaraq Uca Allah buyurur:

***Biz sizi oradan*** *(torpaqdan)* ***xəlq etdik, oraya qaytardıq və bir daha oradan da çıxaracağıq (Ta-hə, 55).***

Həmçinin Uca Allah buyurur:

***Allah sizi yerdən bitki kimi bitirdi. Sonra sizi oraya qaytarar və oradan da çıxarar (Nuh, 17-18).***

Dirildikdən sonra isə insanlar hesaba çəkiləcək və öz əməllərinə görə mükafat və ya cəzalarını alacaqlar. Buna dəlil isə, Uca Allah buyurur:

***Göylərdə və yerdə olan nə varsa, Allahındır. Pislik edənləri pisliyinə və yaxşılıq edənləri yaxşılığına görə cəzalandıracaq olan*** *(və ya mükafatlandıracaq olan)* ***da Odur (Nəcm, 31).***

Kim öldükdən sonra olan dirilişi inkar edərsə kafir olar. Buna dəlil olaraq Uca Allah buyurur:

***Kafir olanlar dirilməyəcəklərini güman etdilər. De, Rəbbimə and olsun ki, siz əlbəttə ki diriləcəksiz. Sizə etdikləriniz barədə xəbər veriləcəkdir. O, Allah üçün çox asandır (Təğabun, 7).***

Allah bütün Rəsulları müjdələyən və qorxudanlar olaraq göndərmişdir: Buna dəlil olaraq Uca Allah buyurur:

*(Biz)* ***müjdələyən və qorxudan Rəsullar*** *(göndərdik ki,)* ***insanlar üçün Rəsulların*** *(gəlişindən)* ***sonra Allaha qarşı bir bəhanə qalmasın (Nisa, 165).***

Onların ilk olanı Nuhdur (Allahın ona salamı olsun), sonuncusu isə Muhəmməddir (Allahın ona və ailəsinə salavatı və salamı olsun) və o, Peyğəmbərlərin sonuncusudur. Onlardan birincisinin Nuh (Allahın ona salamı olsun) olmasına dəlil olaraq Uca Allah buyurur:

***Həqiqətən Biz, Nuha və ondan sonra gələn Peyğəmbərlərə vəhy etdiyimiz kimi, sənə də (Nisə, 163).***

Uca Allah Nuhdan Muhəmmədə (Allahın onların hər ikisinə salavatı və salamı olsun) qədər olan hər bir ümmətə onlara tək olan Allaha ibadəti əmr edib tağutlardan[10] çəkindirən Rəsullar göndərmişdir. Buna dəlil olaraq Uca Allah buyurur:

***Biz artıq hər bir ümmətə Rəsul göndərdik ki, onlar Allaha ibadət edib tağutlardan çəkinsinlər (Nəhl, 36).***

Allah bütün qullara tağuta küfr edib (inkar edib), Allaha iman gətirməyi vacib etmişdir. İbn əl-Qayyim (Allah ona rəhmət etsin) buyurmuşdur: ***"Tağutun mənası - qulun ibadətində, tabeçiliyində və itaətində öz həddini*** *(Allahın qoyduğu hədləri)* ***aşmasına deyilir."***

Tağutlar çoxdur, öndə gələnləri isə beşdir: 1) ***İblis*** - Allah ona lənət etsin, 2) ***Özü razı olduğu halda ona ibadət edilən kəs***, 3) ***İnsanları öz nəfsinə ibadətə çağıran***, 4) ***Qeyb elmindən nəyi isə bildiyini iddia edən***, 5) ***Allahın nazil etdiyi ilə hökm verməyən kəs***. Bunlara dəlil olaraq Uca Allah buyurur:

***Dində məcburiyyət yoxdur. Artıq doğru yol əyrindən*** *(doğru olmayandan)* ***seçilmişdir. Kim tağutları inkar edib, Allaha iman gətirərsə, o, artıq qırılmayan bir ipdən yapışmışdır. Allah Eşidəndir, Biləndir (Bəqara, 256).***

(Məhz) bu, ***Lə iləhə illəllah***-ın mənasıdır. Hədisdə belə buyrulur:

***İşin başı İslamdir, onun dirəyi namazdır, ən uca zirvəsi isə, Allah yolunda cihaddir.***[11]

**Uca Allah daha yaxşı bilir. Bununla da Üç əsas** (risaləsi) **tamamlandı.**

---

[10] *Tağut – Allahdan başqa ibadət olunanlar.*

[11] *Sunən ət-Tirmizi, 2616. Səhihdir. Həmçinin, Əhməd, Musnəd, 22016; 22032 (hər iksi "Allah yolunda" ləfzi olmadan rəvayət etmişlər). Həmçinin bax: Tabərani, Mucəmul-Kəbir. və s.*